# Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı

2018-ci il iyunun 8-də Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilmişdir. Ümumi yığıncaqda AMEA Rəyasət Heyətinin 2017-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti və qarşıda duran vəzifələr haqqında məsələ müzakirəyə çıxarılmışdır.

Qeyd edilmişdir ki, 2017-ci ildə AMEA tərəfindən mövcud elmi-texniki potensialın daha da inkişaf etdirilməsi, beynəlxalq elmi əlaqələrin genişləndirilməsi, elm, təhsil və iqtisadiyyat arasında əlaqələrin gücləndirilməsi, yüksəkixtisaslı kadrların hazırlanması, elmi tədqiqat fəaliyyətinin əlaqələndirilməsi, elmi tədqiqatların ölkəmizin sosial-iqtisadi problemlərinin həllinə, milli dövlətçiliyimizin möhkəmləndirilməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına yönəldilməsi və digər istiqamətlərdə əhəmiyyətli işlər görülmüş, elmin inkişafı üçün mühüm tədbirlər həyata keçirilmişdir.

2017-ci il Azərbaycan Respublikasının həyatı üçün əlamətdar hadisələrlə zəngin olmuş, ölkənin davamlı inkişafını təmin edən bütün istiqamətlərdə, o cümlədən elm sahəsində böyük uğurlar və nailiyyətlər əldə edilmişdir.

Hesabat müddəti ərzində ən mühüm hadisələrdən biri bu ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçkilərin keçirilməsi, Azərbaycanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafında mühüm xidmətləri olan, dünya siyasi liderləri içərisində xüsusi mövqeyə malik cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsi olmuşdur.

Hesabat ilində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin maaşları, doktorantlar, ali təhsil, orta ixtisas və peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdləri, həmçinin AMEA-nın magistrləri üçün müəyyən edilən təqaüdlərin aylıq məbləği artırılmışdır.

Bunlardan əlavə, dövlət başçısının müvafiq sərəncamlarına əsasən elmin inkişafında xüsusi xidmətləri olan alimlər yüksək dövlət təltiflərinə layiq görülmüş, görkəmli elm xadimlərinin xatirələri əbədiləşdirilmiş, yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir.

2017-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə "Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası haqqında Əsasnamə", "Elmi müəssisələrin akkreditasiyası qurumu haqqında Əsasnamə", "Elmi müəssisələrin akkreditasiyası Qaydası", "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı" təsdiq olunmuş, habelə elmi tədqiqat institutlarının sahibkarlıq fəaliyyəti növləri müəyyən edilmişdir.

2017-ci ildə AMEA Rəyasət Heyətinin 14 iclası keçirilmişdir. Bu iclaslarda 10 elmi məruzə dinlənilmiş, AMEA-nın elmi və elmi-xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi, elmi-təşkilati, struktur və kadr məsələləri, normativ-hüquqi sənədlərin təkmilləşdirilməsi ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilmişdir.

Dövlət başçısının 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda AMEA üzərinə düşən vəzifələrin icrasını təmin etmək məqsədilə AMEA Rəyasət Heyətinin 01 noyabr 2017-ci il tarixli 12/5 nömrəli qərarı ilə Tədbirlər planı təsdiq edilmiş və AMEA-nın aidiyyəti qurumlarına müvafiq tapşırıqlar verilmişdir. Dövlət Proqramı çərçivəsində 2017-ci il dekabrın 15-də AMEA-nın, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə ölkədə ilk dəfə olaraq Azərbaycan Gənc Alimlərinin qurultayı keçirilmişdir. Tədbirdə ölkədə gənclər siyasətinin daha da inkişaf etdirilməsi, gənclərin elmə cəlb olunması, onların elmi fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması, eyni zamanda, gənclərin problemlərinin öyrənilməsi və onların aradan qaldırılması ilə bağlı müzakirələr aparılmış və tədbirin yekununda Azərbaycan Gənc Alimlərinin qurultayının bəyannaməsi qəbul olunmuşdur.

Hesabat ilində AMEA-nın elmi müəssisələri "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritələri"nin, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının, "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017- 2020-ci illər üçün Milli Strategiya"nın, habelə 15 dövlət proqramının və digər dövlət tapşırıqlarının icrasında yaxından iştirak etmiş, dövlətin elm siyasətinin reallaşması üzrə bir sıra tədqiqat işləri və layihələr həyata keçirmişlər.





Dövlət başçısı tərəfindən 2017-ci ildə imzalanmış fərman və sərəncamların icrası ilə bağlı AMEA-da görülmüş işlər barədə yarımillik və illik hesabatlar hazırlanıb Azərbaycan Respublikası Prezidenti Administrasiyasına və digər aidiyyəti dövlət orqanlarına təqdim edilmişdir.

2017-ci ildə ölkədə informasiya cəmiyyətinin formalaşması və inkişaf tempinə müvafiq olaraq elektron Azərbaycanın tərkib hissəsi kimi elektron elmin formalaşması istiqamətində əhəmiyyətli irəliləyiş əldə edilmiş, onun elektron təhsil və digər on-layn mühitlərə inteqrasiyası təmin olunmusdur. Elektron elmin platformasi olan AzScienceNet elm kompüter şəbəkəsinin infrastrukturu genişzolaqlı İnternet texnologiyaları əsasında yenidən qurulmuş, texnoloji bazası modernləşdirilmiş və funksional imkanları əhəmiyyətli dərəcədə artırılmışdır.

2017-ci il mayın 2-də AMEA-nın üzvlüyünə seçkilər keçirilmiş, AMEA-nın 16 həqiqi üzvü, 25 müxbir üzvü seçilmişdir.

AMEA Rəyasət Heyətinin 18 yanvar 2017-ci il tarixli 1/2 nömrəli qərarı ilə "AMEA-nın professoru" adı təsis olunmuş və müsabiqə əsasında respublika üzrə 12 nəfər alim "AMEA-nın professoru" adına layiq görülmüşdür.

Hesabat ilində elmlə təhsilin vəhdətinin təmin edilməsi, kadr hazırlığı sisteminin müasir standartlara uyğun olaraq təkmilləşdirilməsi, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiqi məqsədilə mühüm tədbirlər həyata keçirilmişdir.

AMEA-nın magistraturasında 2017/2018-ci tədris ili üçün ixtisasların və qəbul yerlərinin sayı artırılmış və magistraturaya 12 ixtisas, 39 ixtisaslaşma üzrə yüksək balla 67 nəfər qəbul olunmuşdur.

2017-ci ildə AMEA-nın magistrant, doktorant və dissertantları arasında ana dilinə sevgi və hörmət hissini artırmaq, yazıda və şifahi nitqdə ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsini təşviq etmək məqsədilə "Ana dilimiz – milli varlığımızdır" müsabiqəsi keçirilmişdir.

Hesabat ilində AMEA-nın beynəlxalq elmi əlaqələri daha da genişlənmiş, bir sıra xarici ölkələrin elmi müəssisələri ilə elmi əməkdaşlıq haqqında ikitərəfli müqavilələr imzalanmış, əcnəbi alimlər, mədəniyyət və siyasi xadimləri, beynəlxalq təşkilatların nümayəndələri AMEA-nın qonağı olmuşdur.

AMEA-nın alimləri tərəfindən müxtəlif ölkələrə 750-yə yaxın qısa və uzunmüddətli elmi ezamiyyət həyata keçirilmişdir, onlardan 20%-də doktorant, gənc alim və mütəxəssislər iştirak etmişdir. AMEA-nın elmi müəssisələri tərəfindən 2017-ci ildə 70-dən artıq əməkdaşlıq sənədi imzalanmış, 50-dən çox beynəlxalq tədbir təşkil edilmişdir. 2017-ci ildə AMEA-nın alimləri bir sıra təşkilatların qrant müsabiqələrində iştirak edərək 117 qranta layiq görülmüşlər.

Hesabat ilində 1500-ə yaxın elmi tədqiqat işi aparılmış, alınmış elmi nəticələr əsasında ümumilikdə 8900 məqalə və tezis, 532 kitab və monoqrafiya nəşr edilmiş, 50 patent alınmışdır. İl ərzində fəlsəfə doktoru proqramı üzrə 149 dissertasiya işi, elmlər doktoru proqramı üzrə isə 35 dissertasiya işi müdafiə olunmuşdur.

2017-ci il sentyabrın 22-də AMEA-nın "Qonaq evi"nin açılışı olmuşdur. Qonaq evində AMEA-ya gələn qonaqların yüksək səviyyədə qarşılanması və yerləşdirilməsi üçün bütün lazımi şərait yaradılmışdır.

AMEA Rəyasət Heyətinin 2017-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı müzakirə edərək, AMEA üzvlərinin çıxışlarındakı təklif və tövsiyələri nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı **QƏRARA ALDI:**

1. AMEA Rəyasət Heyətinin 2017-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat təsdiq edilsin.

2. AMEA Rəyasət Heyətinin 2017-ci il üzrə fəaliyyəti qənaətbəxş hesab edilsin.

3. AMEA-nın Rəyasət Heyətinə tapşırılsın:

3.1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin AMEA-nın 70 illik yubileyinə həsr olunmuş AMEA-nın Ümumi yığıncağındakı proqram xarakterli çıxışında və digər tapşırıqlarında elmin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrası davam etdirilsin;

3.2. Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritələri"nin hə-

yata keçirilməsində AMEA-nın yaxından iştirakı təmin edilsin;

3.3. Dövlətin elmi-texniki siyasətinin işlənib hazırlanmasında və həyata keçirilməsində AMEA-nın iştirakı daha da gücləndirilsin;

3.4. Elmi tədqiqatların maliyyələşdirilməsinin təkmilləşdirilməsi ilə bağlı islahatlar, o cümlədən fənlərarası kompleks elmi tədqiqat proqramlarının müsabiqə əsasında maliyyələşdirilməsi prinsiplərinin tətbiqi davam etdirilsin;

3.5. AMEA-nın beynəlxalq meqalayihələrdə, o cümlədən Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (Dubna), Avropa Nüvə Tədqiqatı Mərkəzi (CERN) ilə birlikdə həyata keçirilən layihələrdə fəal iştirakı davam etdirilsin. Təbabətin inkişafı ilə bilavasitə əlaqəsinin olduğunu nəzərə alaraq nüvə fizikasının problemlərinin tədqiqinə dair proqramın işlənilməsi nəzərdə tutulsun;

3.6. AMEA-nın fundamental elmi tədqiqat proqramlarının siyahısına daxil etmək məqsədilə nanostruktur və nanotexnologiyalar üzrə fundamental elmi tədqiqat proqramı işlənilsin;

3.7. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə ətraf mühitin öyrənilməsi və ekoloji problemlərin həlli ilə bağlı məsələlərə həsr olunmuş xüsusi proqramlar işlənilib hazırlansın;

3.8. "Azərbaycanın alternativ energetikası" milli elmi layihəsinin işlənilməsi təşəbbüsü ilə çıxış edilsin;

3.9. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə aqrar sahə ilə bağlı elmi problemlərin həllinə yönəlmiş məqsədli proqram işlənilsin;

3.10. Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının birgə iclasının 16 fevral 2018-ci il tarixli qərarının icrasını təmin etmək məqsədilə müştərək elmi-praktik proqram işlənilsin. Fundamental elmin və təbabətin inteqrasiyasının vacib faktor olduğunu nəzərə alaraq, sosial xarakterli xəstəliklərin profilaktikası və diaqnostikası ilə bağlı məsələlərin həlli üçün tibbin fundamental problemləri üzrə məqsədli proqram işlənilsin;

3.11. Struktur biologiyası, Azərbaycan populyasiyasının, o cümlədən irsi və qeyri-irsi xəstəliklərin molekulyar-genetik əsaslarının öyrənilməsi, Azərbaycanda insan genomunun tədqiqi, kompüter genomikası və bioinformatika sahələrində multidissiplinar elmi tədqiqat işləri genişləndirilsin;

3.12. İctimai və humanitar elmlər sahəsində Azərbaycançılıq ideologiyasının elmi-nəzəri əsaslarının öyrənilməsi, fənlərarası araşdırmaların genişləndirilməsi, xalqın tarixi, mədəniyyəti, etnoqrafiyası, ədəbi-ictimai fikri ilə bağlı tədqiqatların daha da dərinləşdirilməsi istiqamətində layihələr işlənilsin;

3.13. Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasına və Elmi Müəssisələrin Akkreditasiyası Qurumuna hüquqi şəxs statusunun verilməsi barədə müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırılsın;

3.14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin nəzdində fəaliyyət göstərən Terminologiya Komissiyasının fəaliyyətini tənzimləyən mövcud hüquqi sənədlərin yenidən işlənilməsi, ona hüquqi şəxs statusunun verilməsi və maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırılsın;

3.15. AMEA-nın elmi bölmələrində aparılan elmi tədqiqatların inkişafının yekunları ilə bağlı müvafiq qərarların qəbul edilməsi məqsədilə rübdə bir dəfə AMEA Rəyasət Heyətinin müəyyən elmi bölmənin ümumi yığıncağı ilə birgə iclasının keçirilməsi praktikası tətbiq edilsin;

3.16. Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan olunmuş sosial yönümlü siyasəti dəstəkləmək və onun həyata keçirilməsində Azərbaycanın akademik elminin intellektual potensialı ilə birlikdə aktiv iştirak etmək məqsədilə Azərbaycanın biznes ictimaiyyətinə çağırışla müraciət edilsin;

3.17. Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə birlikdə ölkəmizdə milli-innovativ mühitin formalaşdırılmasına və biliklər iqtisadiyyatının inkişafına əhəmiyyətli dərəcədə dəstək olacaq "İntellektual mülkiyyət haqqında" Qanunun qəbul edilməsi istiqamətində işlər həyata keçirilsin;

3.18. AMEA-nın Yüksək Texnologiyalar Parkının maddi-texniki bazasının və kadr potensialının formalaşdırılması, onun müvafiq infrastrukturunun qurulması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilsin;

3.19. AMEA-da ölkənin müdafiə qüdrətinin gücləndirilməsi ilə bağlı strateji əhəmiyyətli işlər davam etdirilsin;





3.20. Vahid milli elmi on-layn infrastrukturun və informasiya fəzasının yaradılması, elmin informasiya təminatının gücləndirilməsi, Azərbaycan elminin dünya elminə inteqrasiyasının təmin edilməsi, AMEA-nın institut və təşkilatlarının əməkdaşlarının dünyanın elm və təhsil şəbəkələrinin təqdim etdiyi imkanlardan yararlanması üçün AzScienceNet Elm-Kompüter Şəbəkəsinin infrastrukturunun fəaliyyəti daha da gücləndirilsin;

3.21. Elektron Azərbaycanın tərkib hissəsi kimi e-elmin formalaşması, müxtəlif səviyyələrdə elmi fəaliyyətin qiymətləndirilməsi, e-elmin mövcud vəziyyətinin və prioritet istiqamətlərinin müəyyənləşdirilməsi, elektron təhsil və digər onlayn mühitlərə inteqrasiyasının təmin olunması istiqamətlərində işlər gücləndirilsin;

3.22. Elmdə kooperasiyanın mütərəqqi forması kimi "virtual" laboratoriyaların yaradılmasının məqsədəuyğunluğu məsələsinə baxılsın;

3.23. AMEA-da magistratura təhsilinin uğurlu nəticələrini nəzərə alaraq onun daha da inkişaf etdirilməsi və doktorantura təhsilinin təkmilləşdirilməsi ilə bağlı fəaliyyət davam etdirilsin;

3.24. Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq qurumları ilə birgə müasir tələblərə cavab verən tədris proqramlarının, dərsliklərin və dərs vəsaitlərinin hazırlanmasında AMEA-nın iştirakı təmin edilsin;

3.25. Respublikanın ali təhsil müəssisələrinin magistrant və doktorantlarına AMEA-nın yüksək elmi potensiala malik alimlərinin elmi rəhbər olaraq cəlb edilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilsin;

3.26. Təhsil müəssisələrində AMEA-nın tanınmış alimlərinin "ustad dərsləri"nin təşkili istiqamətində tədbirlər həyata keçirilsin;

3.27. Xaricdə yaşayan azərbaycanlı alimlərdən ibarət elmi diaspora ilə əməkdaşlıq gücləndirilsin;

3.28. AMEA-nın elmi jurnallarının nəşri təkmilləşdirilsin;

3.29. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Bilik Fondunun imkanlarını cəlb etməklə elmi-populyar əsərlərin dərci sahəsində gerilik aradan qaldırılsın;

3.30. AMEA əməkdaşlarının sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər davam etdirilsin, sosial obyektlərin akademik şəbəkəsinin ritmik fəaliyyəti təmin edilsin, ipoteka mexanizmlərinin tətbiqi ilə alimlərin güzəştli mənzil təminatı sahəsində müvafiq tədbirlər həyata keçirilsin;

3.31. İllik hesabatın müzakirəsi zamanı irəli sürülən təkliflər nəzərə alınmaqla Ümumi yığıncağın qərarının yerinə yetirilməsinə dair Tədbirlər planı işlənib hazırlansın.

4. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.